https://doi.org/10.59849/3006-1342.2025.3.160
UOT 316

*Çimnaz Qabil qızı Vəliyeva*
*AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzi*
*Nizamişünaslığın Aktual Problemləri şöbəsi*
*Elmi işçi*
*E-mail: chimnazaliyeva@yahoo.com*
*https://orcid.org/0009-0004-9844-5469*

# COP29 - QLOBAL PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

*BMT-nin İqlim Dəyişiklikləri ilə Çərçivə Konvensiyasının Tərəflər Konfransı dünyanın hər yerindən millətlərin əməkdaşlığının vacibliyini nümayiş etdirmək üçün hər il fərqli bir şəhərdə toplanır. Tərəflər Konfransı (COP), Paris Sazişi və Konvensiyası üzrə irəliləyişə nail olmaq və ən son elmi tədqiqat və məlumatlara əsasən qlobal istiləşməni 1,5°C-ə qədər məhdudlaşdırmaq üçün hökumətlərin beynəlxalq səyləri qiymətləndirdiyi Tərəflər Konfransının rəsmi tədbirləridir. Qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan bu mötəbər tədbirə evsahibliyinin Azərbaycana həvalə edilməsi ölkəmizə yüksək etimadın və inamın göstəricisidir. 200 dövlətin dəstəyi ilə Azərbaycan bu məsuliyyəti boynuna götürərək 2024-cü il noyabr 11-dən 24-dək COP29-un möhtəşəm şəkildə baş tutmasına nail oldu. COP29 məkanında ərazicə ən böyük Azərbaycan pavilyonunda bir sıra diqqətçəkən sessiyalar və tədbirlər keçirildi. COP29-un Azərbaycanda keçirilməsi ölkənin "yaşıl enerji"yə keçidində, eləcə də bərpaolunan enerjinin inkişafı məqsədlərinə nail olunmasında mühüm rol oynadı. Azərbaycan gələcəkdə ölkənin iqtisadi inkişafına dəstək olacaq "yaşıl enerji"nin Avropaya ixracı ilə bağlı layihənin həyata keçirilməsi üçün əhəmiyyətli tərəfdaşlar cəlb edə biləcək. Nəzərə alsaq ki, Azərbaycanın alternativ enerji mənbələri üçün çox böyük potensialı var, belə mühüm layihələrin həyata keçirilməsi istiqamətində beynəlxalq maliyyə kanallarının açılması "yaşıl enerji"nin yeni dövrünün başlanğıcıdır. COP29 işğaldan azad edilən ərazilərdəki ekoloji problemlər üçün də vacibdir. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa işləri həyata keçirilir və bu işlər həm də COP29 Azərbaycanın öhdəliklərinə uyğun şəkildə aparılır.*

*COP29 insan kapitalının inkişafına mühüm perspektivlər vəd edərək elmi təfəkkürdə də yeniliklər yaratmışdır.*

*Azərbaycan COP29-a layiqli ev sahibliyi etməklə növbəti beynəlxalq nailiyyətini tarixə həkk etdi.*

*Açar sözlər:* COP29, Azərbaycan, Bakı Bəyannaməsi, yaşıl enerji, iqlim dəyişikliyi

BMT-nin İqlim Dəyişiklikləri ilə Çərçivə Konvensiyasının Tərəflər Konfransı dünyanın hər yerindən millətlərin əməkdaşlığının vacibliyini nümayiş etdirmək üçün hər il fərqli bir şəhərdə toplanır. Tərəflər Konfransı (COP), Paris Sazişi və Konvensiyası üzrə irəliləyişə nail olmaq və ən son elmi tədqiqat və məlumatlara əsasən qlobal istiləşməni 1,5°C-ə qədər məhdudlaşdırmaq üçün hökumətlərin beynəlxalq səyləri qiymətləndirdiyi Tərəflər Konfransının rəsmi tədbirləridir. COP-un ilk toplantısı 1995-ci ildə Berlində keçirilmişdir. Qlobal miqyasda baş verən iqlim dəyişikliklərinin ətraf mühitə olan neqativ təsirlərinin getdikcə intensivləşməsi sazişi zəruri edən səbəb idi. Çünki qlobal təhdidlər və qlobal təhlükələr bütövlükdə bəşəriyyəti hədəfə alan problemlərdir.

Bu zamana qədər COP-a Almaniya (5 dəfə), İsveçrə, Yaponiya, Argentina (2 dəfə), Niderland, Mərakeş, Hindistan, İtaliya, Kanada, Kenya, İndoneziya, Polşa (2 dəfə)

Danimarka, Meksika, Cənubi Sudan, Qətər, Peru, Fransa, İspaniya, Birləşmiş Krallıq, Misir və Birləşmiş Ərəb Əmirliyi ev sahibliyi edib. Sonuncu COP28 Dubay şəhərində baş tutub. COP30-un isə Brazilyada keçirilməsi nəzərdə tutulur. Hazırda Konvensiya 198 Tərəfdən (197 ölkə və Avropa İttifaqı) ibarətdir.

COP29-un əsas məqsədləri sırasında istixana qazlarının emissiyalarının azaldılması, qlobal istiləşmənin dramatik təsirlərinə uyğunlaşmaqda ən həssas ölkələrə dəstək olmaq üçün yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması kimi məqamlar vardır. Konfrans bir çox bölgədə təbii fəlakətlərə təkan verən qlobal tempraturun həyəcanverici artımına cavab vermək üçün unikal fürsət kimi qiymətləndirilir. Məqsəd bəşəriyyəti xilas etmək məramı ilə onun maddi təminatını yaratmaqdır. Keçirilən hər bir COP konfransı iqlim dəyişikliyi üzrə beynəlxalq əməkdaşlıq üçün mühüm imkanlar yaradır.

Qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan bu mötəbər tədbirə evsahibliyinin Azərbaycana həvalə edilməsi ölkəmizə yüksək etimadın və inamın göstəricisidir. Təxminən 196 ölkədən nümayəndələrin iştirak etdiyi COP29 konfransını təşkil edərək, Azərbaycan 2024-cü il 11–22 noyabr tarixlərində öz üzərinə böyük diplomatik məsuliyyəti götürdü və tədbiri uğurla keçirdi [15]. COP29 məkanında ərazicə ən böyük Azərbaycan pavilyonunda bir sıra diqqətçəkən sessiyalar və tədbirlər keçirildi.

Məlumdur ki, Azərbaycan COP29 üçün sülh, maliyyə, insan kapitalı, su və bir sıra digər məsələləri ehtiva edən 14 təşəbbüsdən ibarət iddialı Fəaliyyət Gündəliyini aylar öncə hazırlamışdır. Sənəddə iqlim dəyişikliyi kontekstində dünyanı narahat edən əsas məsələlər öz əksini tapıb.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkənin yaşıl enerjiyə keçidində, eləcə də bərpaolunan enerjinin inkişafı məqsədlərinə nail olunmasında mühüm rol oynadı. Azərbaycan gələcəkdə ölkənin iqtisadi inkişafına dəstək olacaq yaşıl enerjinin Avropaya ixracı ilə bağlı layihənin həyata keçirilməsi üçün əhəmiyyətli tərəfdaşlar cəlb edə biləcək. Nəzərə alsaq ki, Azərbaycanın alternativ enerji mənbələri üçün çox böyük potensialı var, belə mühüm layihələrin həyata keçirilməsi istiqamətində beynəlxalq maliyyə kanallarının açılması yaşıl enerjinin yeni dövrünün başlanğıcıdır. Bu Beynəlxalq konfransda Yaşıl enerjiyə keçidlə bağlı bir sıra müqavilələr imzalanaraq əməli addımlar atıldı. Belə ki, Sessiyanın gedişində noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sayəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalandı [16].

44 günlük Zəfər müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda təkbaşına, heç bir beynəlxalq maliyyə qurumunun köməyi və iştirakı olmadan genişmiqyaslı bərpa və quruculuq işləri apararaq ekoloji fəlakətlərə qarşı mübarizənin vacib elementlərindən sayılan yaşıl enerjiyə keçidə də şəxsi töhfələrini verməkdədir. Sazişin daha bir mühüm məqamı ona Səudiyyə Ərəbistanının da qoşulmasıdır.

Sazişin digər tələbi dünyada tempaturun orta qlobal istiləşməsini 1.5 dərəcə Selsi səviyyəsində saxlamaqdır. Çünki karbon qazı qlobal istiləşməyə səbəb olur. Dünyanın COP-da birləşmə niyyətlərindən biri də məhz bu faktordur.

COP29 Azərbaycanın indiyə qədər təşkil etdiyi ən nəhəng tədbirdir və regionda ilk dəfə Azərbaycanda baş tutmuşdu. İştirakçı sayına görə dünyada ən böyük, həmçinin, BMT yığıncaqlarından sonra ölkələrin ən çox qoşulduğu tədbirdir. Təsadüfi deyil ki, COP29-da iştirak etmək üçün Azərbaycana 196 ölkədən 72 min iştirakçı gəlmişdi. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazir vardı. Hər gün isə sammitə qatılanların sayı 20 min nəfərdən artıq olmuşdur.

Son dövrdə aktuallaşan iqlim dəyişmələri kimi qlobal mövzu ilə bağlı bu mötəbər tədbirin Azərbaycanda keçirilməsini Azərbaycan dövlətinə etibar etməsi, dünyanın

Azərbaycan güvəninin göstəricisidir. Bədii dillə desək, dünyanın siyasi, iqtisadi nəbzi ölkəmizdə vururdu. Dünya ölkələri səbirsizliklə COP29-da alınacaq qərarları gözləyirdilər.

COP29-un BMT tərəfindən təşkil olunan rəsmi hissəsindən əlavə, COP29-un ev sahibi Azərbaycan beynəlxalq ictimaiyyətə və vətəndaş cəmiyyətinin üzvlərinə həll yolları və inkişaf istiqamətləri təqdim etmək imkanı verdi. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin öz niqtində dediyi kəlmələr ən dəyərli mülahizədir: COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Dünyada az ölkə var ki, öz enerji təhlükəsizliyini tam şəkildə özü həll etmiş olsun. Prezident İlham Əliyevin çıxışlarının birində dediyi kimi: Azərbaycanda ümumi iqtisadi artımdan danışarkən, biz enerji təhlükəsizliyi məsələsinə toxunmalıyıq. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir və bir çox digər ölkələrin, o cümlədən Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyini təmin edir [17].

COP-29 Azərbaycanın qlobal nüfuzunun göstəricisi olması bu tədbirdə iştirak edən dünya liderlərinin ümumi fikri olaraq yadda qaldı. Qeyd edək ki, ölkəmizin COP29-a evsahibliyi etməsi ilə bağlı yekdil qərar COP28-in dekabrın 11-də keçirilən plenar iclasında verilmişdi. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşdü.

Azərbaycanın beynəlxalq arenada, xarici ölkələrdə daha çox tanınması, ölkəmizin qlobal nüfuzunun yüksəlməsi istiqamətində mühüm layihələr reallaşdıran ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva COP29 çərçivəsində bir daha uğurlu missiyasını davam etdirib. Belə ki, Azərbaycanın layiqli evsahibliyi etdiyi beynəlxalq iqlim konfransında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun da fəal iştirakı, yeni təşəbbüsləri xüsusi diqqət çəkdi. Həmçinin, BMT-nin Baş Assambleyasına üzv dövlətlərin yarısından çoxu bu tədbirdə təmsil olunurdu. Bu cür genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəlməsi isə Azərbaycanın qlobal məsələlərin həllində artan rolunu və beynəlxalq problemlərə töhfə vermək həssaslığını nümayiş etdirirdi. Azərbaycan bununla həm qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə həmrəyliyə inamını ifadə edir, həm də regional və qlobal səviyyədə ətraf mühit siyasətinin gücləndirilməsinə, inkişafına imkan yaradır.

COP29-un Azərbaycan üçün müxtəlif sahələrdə perspektivlər vəd edir. COP29 Azərbaycanın istixana qazı emissiyalarını azaltmaq üzrə öhdəliklərini yerinə yetirməsinə kömək edərək ölkənin ekoloji vəziyyətini yaxşılaşdıracaq, havanın keyfiyyətini artıracaqdır. Nəticədə iqlim dəyişikliyinin təsirlərini azaltmağa kömək olacaqdır. O cümlədən, Azərbaycan istixana qazı emissiyalarını 2050-ci ilə qədər 40% azaltmağı məqsəd qoyub. Bu da Paris Sazişinə uyğun olaraq qlobal iqlim məqsədlərinə töhfə verəcək.

COP 29 konfransının Azərbaycan iqtisadiyyatına da müsbət təsirlərini bəxş etdi. Bu konfrans həm turizm sektorunda canlanmaya, həm də yeni investisiyaların və texnologiyaların cəlb olunmasına, yaşıl enerjinin inkişafının təşviqinə, ölkənin beynəlxalq əlaqələri, diplomatiyadakı mövqeyinin daha da möhkəmlənməsinə vəsilədir. Azərbaycana qlobal diqqətin yönəldilməsi regionun üzləşdiyi xüsusi ekoloji problemlər haqqında məlumatlılığın artmasına rəvac vermişdir. Su qıtlığı, biomüxtəlifliyin itirilməsi kimi problemləri ön plana çıxarmaqla, COP29 bunların həlli üçün resursların ayrılmasını artıra bilər.

COP29 işğaldan azad edilən ərazilərdəki ekoloji problemlər üçün də vacibdir. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa işləri həyata keçirilir və bu işlər həm də COP29 Azərbaycanın öhdəliklərinə uyğun şəkildə aparılır.

COP 29 insan kapitalının inkişafına mühüm perspektivlər vəd edərək elmi təfəkkürdə də yeniliklər yaratmışdır.

COP29-un başlanğıcında Azərbaycan hökuməti "Uşaqlar, Gənclər və İqlim Fəaliyyəti" Bəyannaməsini imzalayaraq, iqlim siyasətində uşaqları prioritet kimi qəbul etdiyini rəsmi olaraq təsdiqlədi. UNICEF isə hökumətin bu addımına böyük dəyər verərək, bu sənədin həm yerli, həm də qlobal miqyasda inklüziv və gənclər yönümlü iqlim siyasətlərini sürətləndirən ilk çərçivə bəyannaməsi olduğunu qeyd edir [18]. COP29-un Urbanizasiya, Nəqliyyat və Turizm Günü çərçivəsində Beynəlxalq aviasiya və iqlim dəyişikliyi adlı yüksək səviyyəli panel müzakirəsi keçirilərək aviasiya sektorunda emissiyaların azaldılması üçün güclü və qabaqlayıcı qlobal tədbirlərə və ICAO-ya üzv dövlətlərin xalis sıfır (Net Zero) hədəfinə nail olmaq üçün potensial əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb. Eyni zamanda, əlaqədar məsələlər akademik dairələr, sənaye, hökumətlər və beynəlxalq təşkilatların diqqət yetirməli olduğu əsas sahələr barədə fikir mübadiləsi aparılmışdır. O cümlədən, COP-29-un urbanizasiya tədbirlərində Azərbaycan təcrübəsindən geniş bəhs olunaraq Azərbaycan urbanizasiya probleminin həlli yolları təqdim olunmuşdur.

Yaşıl dünya naminə həmrəylik şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu deyərək İlham Əliyev tədbirin əsas nüanslarına diqqət çəkdi.

Əlavə edək ki, COP29 çərçivəsində iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətlərini dəstəkləmək məqsədilə Kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair Bakı Bəyannaməsi qəbul olunub.

Azərbaycanda COP29 tədbiri həm təşkilatçılıq, həm qəbul edilən qərarlar, həm də dünyanın diqqət mərkəzində olması baxımından, o cümlədən bəşəriyyət üçün əhəmiyyətli məsələlərin müzakirəsi ilə yadda qaldı. 11 noyabrdan etibarən, təxminən iki həftəlik müddətdə Bakı şəhərində keçirilən COP29 sammitində dünyanın dörd bir yanından gələn iştirakçılar iqlim dəyişikliyinin nəticələrini yumşaltmaq və onunla effektiv mübarizə aparmaq üçün bir sıra mühüm təşəbbüslər irəli sürdülər və strateji qərarlar qəbul etdilər [19].

Səciyyəvi tədbirlərə COP29 çərçivəsində Mərkəzi və Qərbi Asiyada buzlaqların əriməsinin qarşısının alınması üzrə birgə sessiya keçirilməsini qeyd etmək yerinə düşərdi. Sessiyada buzlaqların əriməsinin törətdiyi problemlər müzakirə olunaraq buzlaqların əriməsinin insanların miqrasiyasına səbəb olduğunu, kənd təsərrüfatının və ümumilikdə iqtisadiyyatın inkişafdan geri qalmasına gətirib çıxarması xüsusi qeyd olunub. Müzakirələrdən sonra BMT-Mərkəzi Asiya ölkələrinin nazirləri İqlim Dəyişikliyi, Buzlaqlar və Transsərhəd Əməkdaşlıq üzrə Tərəfdaşlıq mövzusunda birgə Bəyannamə də imzalayıblar.

Tədbirdə Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Özbəkistanın ətraf mühit nazirləri ilə yanaşı, Asiya İnkişaf Bankı (AİB) və Yaşıl İqlim Fondunun (YİF) yüksək səviyyəli nümayəndələri iştirak etmişdir. Həmçinin, Yaşıl İqlim Fondu və AİB-in birgə maliyyələşdirməsi ilə həyata keçirilməsi planlaşdırılan "Buzlaqlardan Təsərrüfatlara" (G2F) proqramının başlanması məsələsi müzakirə olunmuşdur.

Əlavə edək ki, COP29 çərçivəsində iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətlərini dəstəkləmək məqsədilə Kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair Bakı Bəyannaməsi qəbul olunub.

Eyni zamanda BMT-nin bu tədbiri türk dünyası ailəsinin yeni yol xəritəsinin müəyyənləşdirilməsi istiqamətində də mühüm rol oynayıb. Çünki TDT-nin əsas əməkdaşlıq istiqamətlərindən biri də ətraf mühit və ekologiya ilə bağlıdır. Bu baxımdan beynəlxalq əlaqələr qurmaq təşkilatın ən mühüm perspektiv göstəricisidir.

COP29 zamanı Azərbaycan "Vahid Sağlamlıq" üzrə Milli Strategiya Planını beynəlxalq ictimaiyyətə təqdim etdi. Bu çərçivədə "Dəyişən iqlimdə davamlılığın artırılması: Daha sağlam gələcək üçün Azərbaycanın Vahid Sağlamlıq yanaşması" və "Vahid Sağlamlığın tətbiqi üzrə dörd tərəfli əməkdaşlıq: Sektorlararası işləməklə daha böyük təsir" mövzularında sessiyalar təşkil olundu. Məqsəd insan, heyvan və ətraf mühit sağlamlığını birləşdirən vahid yanaşmanı gücləndirmək, müvafiq qurumlar arasında qarşılıqlı əməkdaşlığı dərinləşdirmək və iqlim dəyişməsinin sağlamlığa təsirlərinə hazırlığı artırmaqdır.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir Hazırda dünya ölkələri üçün ən aktual məsələlərdən biri yaşıl enerjiyə keçiddir və bu, davamlı inkişafın artıq əsas şərtlərindən birinə çevrilməkdədir. Ən əsası da, iqlim böhranının aradan qaldırılmasında məhz yaşıl enerjidən istifadə həlledici əhəmiyyət kəsb edir, istixana qazı emissiyalarını böyük ölçüdə azaltmağa imkan verir. Ümumiyyətlə, ekoloji, iqtisadi və texnoloji amillərin birləşməsi yaşıl enerjiyə uğurlu keçid imkanı əsas istiqamətlərdən biri hesab olunur Məqsəd həmin ərazilərdə yüksək potensiala malik bərpaolunan enerjidən istifadə etməklə həmin əraziləri ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin etmək və yaşıl texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır.

Ümumiyyətlə, COP evsahibliyi çox zaman ölkələrin iqtisadiyyatına bir sıra müsbət təsirlərini göstərib. Bu təsirlər əsasən ekoloji layihələrə investisiyaların artırılması, turizm və xidmət sektorlarının genişlənməsi, eləcə də yaşıl iqtisadiyyata keçid üçün yeni imkanların yaradılması ilə əlaqədar olub. Həmçinin, ölkələrin infrastrukturuna yerli və xarici investorların yatırımlarının artmasına səbəb olur. Bu tədbirlər üçün lazımi səviyyədə infrastrukturun təmin edilməsi məqsədilə hotel, konfrans mərkəzləri, nəqliyyat şəbəkəsi və digər xidmətlər inkişaf etdirilir. Bu yenidənqurma layihələri təkcə tədbir dövrü üçün deyil, həm də uzunmüddətli perspektivdə iqtisadi inkişaf, ölkəyə turizm və investorların axını baxımından böyük töhfə verə, yeni imkanlar və dayanıqlı iqtisadi artım üçün stimul yarada bilər. COP tədbirləri texnologiya və bilik mübadiləsinə səbəb olur. Bu, ev sahibi ölkənin iqtisadiyyatına texnologiya transferi və innovativ layihələrin daxil olması üçün yeni imkanlar yaradır. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl prinsiplərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. Dövlətimizin başçısının dəfələrlə vurğuladığı kimi, yaşıl enerji növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycanda bərpaolunan enerjiyə keçid strateji məqsədlərdən biridir. Ölkəmizin texniki potensialı olduqca yüksəkdir və biz bu imkanlardan geniş istifadə edərək enerji sistemimizi şaxələndirmək niyyətindəyik. Məqsədimiz 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan mənbələrin payını təxminən 30 %-ə qədər yüksəltməkdir. Bu yolla istixana qazı emissiyalarını azaltmaq, iqtisadiyyatımızı "yaşıl" istiqamətə çevirmək və yeni investisiya imkanları yaratmaq istəyirik. COP29 çərçivəsində biz həm daxili bazarı gücləndirmək, həm də regionda yaşıl enerji layihələrinə beynəlxalq tərəfdaşları cəlb etməyi hədəflədik. Bu təşəbbüslər yalnız ekoloji, həm də iqtisadi sabitlik üçün uzunmüddətli perspektivlər açacaq.

Bağlanış plenar iclasında COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan edilməsi barədə qətnamə qəbul olundu və beləliklə , bu qlobal tədbirin təşkili, müzakirə olunan məsələlərin çoxluğu və müxtəlifliyi, qəbul olunan qərarların mühüm olması və səmərəliliyi ilə tarixi sessiyaya çevrildi.

Tam əminliklə deyə bilərik ki, COP29 təkcə iqlim tədbiri deyil, bu qlobalmiqyaslı toplantı özündə siyasi dialoqları, sülh çağırışlarını da ehtiva edir. Ölkəmiz bu mötəbər tədbirin keçirildiyi ay ərzində atəşkəsə əməl olunmasına çağırmışdı. Məlumdur ki, münaqişələr istixana effekti yaradan qaz emissiyalarını artıraraq torpağı, suyu və havanı çirkləndirməklə ətraf mühitə külli-miqdarda zərbə vurur. Münaqişələr nəticəsində ekosistemin məhv edilməsi və ətraf mühitin çirklənməsi isə iqlim dəyişməsini daha da gücləndirir. Odur ki, iqlim danışıqları hamını bir araya gətirməlidir. COP-un atəşkəs çağırışı bəşəriyyətin və ekologiyanın xilas yolu, beynəlxalq ictimaiyyət üçün ümumi çağırış olaraq bəşər həmrəyliyinin simvoluna çevrilməlidir. Qeyd etmək yerinə düşərdi ki, dünyanın inkişafına, tərəqqisinə yönələcək qərarlar da Azərbaycanda qəbul edildi. COP Atəşkəs Çağırışı 132 ölkə və 1200-dən çox təşkilatın dəstəyini qazandı, habelə Bakı Sülh, Yardım və Bərpa üçün İqlim Fəaliyyəti Çağırışı qəbul edildi.

Azərbaycan uzun müddətdir ki, öz haqq səsini beynəlxalq aləmə çatdırmaq üçün davamlı səylər göstərir. Ölkəmiz Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur ərazilərinin işğaldan azad edilməsində uğur qazanıb. Ancaq bu azad edilmiş torpaqların bərpası zamanı ciddi problemlərlə üzləşirik - işğal dövründə Ermənistan tərəfindən basdırılan minalar əhalinin geri dönməsini və təhlükəsiz məskunlaşmasını ciddi dərəcədə çətinləşdirir. COP29-un Bakıda keçirilməsi isə məhz bu həqiqətləri bütün dünyaya çatdırmaq, regiondakı sülh niyyətimizi vurğulamaq baxımından böyük strateji əhəmiyyət daşıyır.

Azərbaycan COP29-a layiqli ev sahibliyi etməklə növbəti beynəlxalq nailiyyətini tarixə həkk etdi. Lakin, Azərbaycan bu uğurlara heç də rahat şəraitdə qlobal dəstək mühitində nail olmadı, əksinə, dünyamızın bu günü və gələcəyi naminə məqsədlərə doğru səylə çalışmaqla yanaşı, bir çox süni maneəni də aşmaq, onlara zaman və resurslar sərf etmək məcburiyyətində qaldı. Beləliklə, antiazərbaycançı şəbəkəni iflasa uğradaraq Azərbaycan bu konfransı növbəti zəfərinə çevridi deyə bilərik.

## ƏDƏBİYYAT

1. Azərbaycan qəzeti, № 248 (9703)
2. Azərbaycan qəzeti, № 249 (9704)
3. Azərbaycan qəzeti, № 253 (9708)
4. Azərbaycan qəzeti, № 251 (9709)
5. Azərbaycan qəzeti, № 255 (9710)
6. Azərbaycan qəzeti, № 251 (9706)
7. Azərbaycan qəzeti, № 250 (9705)
8. Azərbaycan qəzeti, № 252 (9707)
9. Azərbaycan qəzeti, № 258 (9713)
10. Azərbaycan qəzeti, № 261 (9716)
11. Azərbaycan qəzeti, № 260 (9715)
12. Azərbaycan qəzeti, № 257 (9712)
13. https://cop29.az/
14. https://president.az/
15. https://unfccc.int/cop29
16. https://president.uz/en/lists/view/7699
17. https://www.azerbaijan-news.az/az/posts/detail/cop-larin-azerbaycan-zirvesi-1732401437/345515
18. https://www.unicef.org/eca/press-releases/azerbaijan-signs-declaration-children-youth-and-climate-action
19. https://enb.iisd.org/baku-un-climate-change-conference-cop29-summary

УДК 316

*Чимназ Габиль кызы Валиева*
*Гянджое Отделение НАНА*
*Центр им. Низами Гянджави*
*Отдел "Актуальные Проблемы Низаминоведения"*

# COP29 - ГЛОБАЛЬНЫЕ ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

*РЕЗЮМЕ*

*Ключевые слова:* COP29, Азербайджан, Бакинская декларация, зелёная энергетика, изменение климата

Конференция сторон Рамочной конвенции ООН об изменении климата (UNFCCC), или COP, ежегодно проходит в разных городах мира, что подчёркивает важность сотрудничества между государствами. Эти конференции являются официальной площадкой для оценки прогресса по Парижскому соглашению и самой Конвенции, позволяя правительствам опираться на новейшие научные исследования и данные с целью ограничения глобального потепления до 1,5 °C.

Предоставление Азербайджану права хозяина этой престижной глобальной климатической площадки говорит о высоком уровне доверия и признания для нашей страны. С поддержкой почти 200 государств Азербайджан взял на себя эту ответственность и успешно провёл COP29 с 11 по 24 ноября 2024 года.

На COP29 павильон Азербайджана был самым большим по площади - в его рамках состоялись целый ряд важных сессий и побочных мероприятий. Проведение COP29 в Азербайджане сыграло ключевую роль в продвижении перехода страны к «зелёной» энергетике и её намерений развития возобновляемых источников энергии. Это позволило Азербайджану привлекать значимых партнёров для будущих проектов, включая экспорт «зелёной» энергии в Европу, что в свою очередь может стимулировать экономическое развитие страны.

Учитывая значительный потенциал Азербайджана в области альтернативной энергии, реализация таких проектов и открытие международных финансовых каналов становится отправной точкой новой эры для возобновляемых источников в стране. COP29 также имеет стратегическое значение для решения экологических проблем в недавно освобождённых от оккупации территориях. В этих регионах ведутся восстановительные работы, которые реализуются в соответствии с обязательствами Азербайджана, взятыми на COP29.

Помимо экологических и энергетических вопросов, COP29 открыл важные перспективы для развития человеческого капитала. Конференция стимулировала инновации в научном мышлении, возвысив дискурс о климатических действиях и устойчивом развитии.

Проведя COP29 на высоком уровне, Азербайджан закрепил ещё одно значимое международное достижение, что отражает и укрепляет его растущий глобальный статус.

UDC 316

*Chimnaz Gabil Valiyeva*
*Azerbaijan National Academy of Sciences, Ganja Branch*
*Nizami Ganjavi Center*
*Department of Current Problems of Nizami Studies*
*Researcher*

## COP29: GLOBAL CHALLENGES AND PROSPECTS

*SUMMARY*

*Keywords:* COP29, Azerbaijan, Baku Declaration, green energy, climate change

The United Nations Framework Convention on Climate Change (UNFCCC) Conference of the Parties (COP) is convened each year in a different city to underscore the importance of multilateral cooperation among nations. These COP sessions are the formal venues for assessing progress under the Paris Agreement and the Convention, enabling governments to align with the latest scientific research and data in order to limit global warming to 1.5 °C.

Hosting this preeminent forum for global climate discussions demonstrates a high degree of trust and confidence in Azerbaijan, and entrusting the conference to our country is a clear signal of recognition. With the support of nearly 200 nations, Azerbaijan rose to this responsibility and successfully held **COP29** from November 11 to November 24, 2024.

At COP29, Azerbaijan's pavilion was the largest in terms of area — within that space, a series of high-profile sessions and side-events were held. The staging of COP29 in Azerbaijan played a pivotal role in advancing the country's transition toward green energy and its ambitions for the development of renewable sources. By doing so, Azerbaijan positioned itself to attract significant partners for future projects, including the export of green energy to Europe, which could in turn drive the country's economic development.

Given Azerbaijan's very large potential for alternative energy sources, the realization of such projects, together with opening international financing channels, marks the beginning of a new era for renewables in Azerbaijan. COP29 was also strategically important for addressing the environmental challenges in the territories recently liberated from occupation. Restoration efforts are underway in these regions, and they are being pursued in line with Azerbaijan's COP29 commitments.

Beyond environmental and energy concerns, COP29 generated important opportunities for human capital development. It stimulated innovation in scientific thinking, elevating the discourse on climate action and sustainable development.

***Daxil oldu: 20.11.2025-ci il***